UOT 94(479.24)

LEYLA ƏLİYEVA
Sumqayıt Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
Orcid-0000-0002-8195-6092
leyla.eliyeva@sdu.edu.az

İRƏVAN XANLIĞININ ETNİK TƏRKİBİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/31-35

İrəvan xanlığının etnik tərkibi tarixi müddət ərzində böyük dəyişikliklərə məruz qalmışdır. Xanlıq yarandığı dövrdə Azərbaycan türkləri əhalinin əksəriyyətini təşkil etmişdir. XIX əsrin əvvəllərinə qədər bu vəziyyət davam etmiş, lakin Rusiyanın Cənubi Qafqazda apardığı işğalçılıq siyasəti və ermənilərin kütləvi köçürülməsi nəticəsində bölgənin demoqrafik vəziyyəti əhəmiyyətli dərəcədə dəyişmişdir. Türkmənçay və Ədirnə müqavilələrindən sonra İran və Türkiyədən İrəvana və Yelizavetpol quberniyalarına on minlərlə erməni köçürülmüşdür. Bu dəyişikliklər bölgənin sosial, iqtisadi və mədəni həyatına ciddi təsir göstərmişdir. Buna baxmayaraq, tarixi mənbələr İrəvan xanlığının uzun müddət əsas etnik qrupunun Azərbaycan türkləri olduğunu təsdiqləyir və bu fakt bölgənin etnik və siyasi dinamikalarını daha yaxşı anlamağa kömək edir.

Açar sözlər: etnik tərkib, İrəvan xanlığı, Türkmənçay müqaviləsi, erməni köçü, Rusiya.

Giriş. İrəvan xanlığı, XVIII əsrin ortalarında Azərbaycanın şimal-qərbində, keçmiş Çuxursəd bəylərbəyliyinin böyük bir hissəsində yaradılmış mühüm tarixi dövlət qurumu idi. Xanlığın ərazisi, Azərbaycanın tarixi sərhədləri daxilində yerləşmiş və mərkəzi İrəvan şəhəri olmaqla, Ağrı düzənliyi, Dərələyəz və Göyçə gölü arasındakı geniş torpaqları əhatə edirdi. 1747-ci ildə Nadir şahın ölümündən sonra onun qurduğu nəhəng imperiyanın dağılması ilə Azərbaycanın digər bölgələri kimi, İrəvan da müstəqil xanlıq olaraq ortaya çıxmışdır. Bu xanlığın yaranması, Azərbaycanın müstəqillik uğrunda mübarizəsinin bir hissəsi olaraq tarixə düşmüşdür [10, s.105-111].

İrəvan xanlığının sərhədləri şimalda Gəncə, şərqdə Qarabağ, cənub-şərqdə Naxçıvan xanlıqları, qərbdə Osmanlı imperiyasının Bayazid və Qars paşalıqları, cənubda isə Maku xanlığı ilə həmsərhəd idi. Bu, xanlığın bölgədəki strateji əhəmiyyətini daha da artırırdı. Coğrafi mövqeyinin və sərhəd əlaqələrinin bu müxtəlifliyi xanlığı daim həm Osmanlı, həm də İran imperiyaları arasında gedən müharibələrin diqqət mərkəzində saxlamışdır.

İrəvan xanlığı, yarandığı gündən etibarən, daxili və xarici təzyiqlərə qarşı mübarizə aparmaq məcburiyyətində qalmışdır. Onun qonşuları olan Azərbaycan xanlıqları, eləcə də Osmanlı və İran dövlətləri ilə qarşıdurmaları, xanlığın siyasi və hərbi tarixini formalaşdırmışdır. Bu dövrdə, İrəvan xanlığında hərbi qüvvələrin təşkilinə xüsusi diqqət yetirilmiş, xanlıqda həm piyada, həm də süvari qoşunları fəaliyyət göstərmişdir. Bölgənin dağlıq relyefi və coğrafi şərtləri nəzərə alındıqda, xanlığın əsas zərbə qüvvəsi kimi süvari qoşunları daha çevik və təsirli olmuşdur.

İrəvan xanlığının 1828-ci ildə Rusiya İmperiyası tərəfindən işğalı, Azərbaycanın qərb bölgəsində demoqrafik və etnik dəyişikliklərə səbəb olan mühüm bir hadisə idi. Türkmənçay müqaviləsi (1828) ilə Rusiya İmperiyası İrəvan və Naxçıvan xanlıqlarını ləğv edərək, onların yerinə "erməni vilayəti" adlı yeni bir inzibati qurum yaratmışdır. Bu qərar, bölgədə yeni bir demoqrafik nizamın yaradılması üçün hüquqi baza oldu və ermənilərin kütləvi şəkildə Azərbaycanın qərb torpaqlarına köçürülməsinə yol açdı [9, s.13].

İrəvan xanlığının etnik tərkibi, tarixin müxtəlif mərhələlərində müxtəlif təsirlərə məruz qalmış və dəyişmişdir. Bu məqalədə, xanlığın əhalisinin etnik tərkibi və bu tərkibin zamanla necə dəyişdiyi haqqında tarixi mənbələr və faktlara əsaslanan ətraflı bir araşdırma təqdim ediləcəkdir. Məqalədə köçlər və xanlığın ərazisində yaşayan müxtəlif etnik qrupların tarixi roluna xüsusi diqqət yetiriləcəkdir.

Etnik tərkibin başlanğıcı. İrəvan xanlığının etnik tərkibi, onun coğrafi mövqeyi və tarixi şəraiti səbəbindən müxtəlif və qarışıq olmuşdur. Xanlığın yerləşdiyi ərazi, tarixi dövrlərdə Azərbaycan, İran,

Osmanlı və Gürcüstan dövlətlərinin təsir dairəsində olmuş və bu, xanlıqda etnik müxtəlifliyi artırmışdır. İrəvan xanlığının əhalisi əsasən Azərbaycan türkləri, ermənilər, kürdlər və qaraçılardan ibarət idi, lakin bu qrupların nisbətləri dövrün siyasi və hərbi proseslərinə görə dəyişikliklərə məruz qalmışdır [2, s.6].

Tarixi mənbələr göstərir ki, İrəvan xanlığında yaşayan əhalinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil etmişdir. Etnik tərkibə dair mötəbər mənbələrdən biri olan V.A.Parsamyanın tədqiqatlarında, İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya birləşdirilməsindən əvvəl əhalinin ümumi sayının 169.000 nəfər olduğu və bunlardan 50%-nin Azərbaycan türkü, 34%-nin erməni, 16%-nin isə kürdlərdən ibarət olduğu göstərilir. Bu statistik məlumat xanlığın etnik müxtəlifliyini açıq şəkildə göstərir və Azərbaycan türklərinin bölgədəki dominant mövqeyini təsdiq edir.

Xanlıq ərazisində Azərbaycan türklərinin üstünlük təşkil etməsi, müxtəlif dövrlərdə Osmanlı və Səfəvi müharibələrinin, iqtisadi və ticari fəaliyyətlərin və coğrafi mövqeyin nəticəsi olaraq meydana gəlmişdir. Məsələn, 1784-cü ildə Axalsıx hakimi Süleyman paşanın İrəvan rəhbərlərinə göndərdiyi məktubda İrəvan əhalisinin "yerli türklər" adlandırılması, bölgənin etnik tərkibinin o dövrdə əsasən türkdilli əhali tərəfindən formalaşdırıldığını göstərir. Bu baxımdan, İrəvan xanlığının əhalisi arasında türkdilli və şiə məzhəbli Azərbaycan türkləri çoxluq təşkil etmişdir.

Digər tərəfdən, erməni mənbələri xanlığın əhalisinin böyük hissəsinin ermənilərdən ibarət olduğunu iddia etsələr də, bu iddialar tarixi faktlara əsaslanmamış və sübut olunmamışdır. Məsələn, erməni tədqiqatçıları V.R.Qriqoryan və T.X.Akopyan İrəvan əhalisinin əksəriyyətinin ermənilərdən ibarət olduğunu qeyd etmişdir. Lakin bu iddialar, o dövrün digər mənbələri ilə ziddiyyət təşkil edir. Səyyah Z. Şirvani və qraf Paskeviç kimi dövrün şahidlərinin məlumatlarına görə, İrəvan xanlığının əhalisinin 3/4 hissəsi müsəlmanlar, yəni əsasən Azərbaycan türklərindən ibarət idi.

Erməni əhalisi isə xanlıqda əksərən azlıq təşkil edirdi. Hətta, erməni mənbələri belə bu faktı inkar edə bilməmişlər. Məsələn, arxiyepiskop Arqutinski, Potyomkinə yazdığı məktubunda İrəvanda çox az erməni yaşadığını etiraf etmişdir. Eyni zamanda, rus hərb tarixçisi N. Dubrovin də "İstoriya voynı i vladıçestva russkix na Kavkaze" adlı əsərində [1, s.299-304], İrəvan xanlığında əhali arasında Azərbaycan türklərinin çoxluq təşkil etdiyini qeyd etmişdir.

Bu dövrdə kürdlər xanlıq ərazisində əsasən maldarlıqla məşğul olan köçəri bir həyat sürürdülər və onların əhalidəki payı 16% civarında idi. Qaraçılar isə xanlıq ərazisində etnik və sosial baxımdan ən az sayda təmsil olunan qrup idi.

Etnik tərkibin müxtəlifliyinə baxmayaraq, Azərbaycan türklərinin İrəvan xanlığında üstünlük təşkil etməsi danılmaz bir tarixi həqiqətdir. Bu vəziyyət bölgənin əhalisi, iqtisadiyyatı və siyasi vəziyyəti ilə sıx bağlı olmuşdur və İrəvan xanlığının tarixi boyunca əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Tarixi mənbələrdən əldə edilən məlumatlara əsaslanaraq, Azərbaycan türklərinin İrəvan xanlığının əhalisinin böyük bir hissəsini təşkil etdiyi qənaətinə gəlmək olar [6, s.12].

İrəvan xanlığının əsas etnik tərkibi. İrəvan xanlığının XIX əsrin əvvəllərindəki etnik tərkibi haqqında mötəbər məlumatlar, əsasən, Rusiya İmperiyası tərəfindən aparılan kameral siyahıyaalmalardan və müasir tarixçilərin araşdırmalarından əldə edilmişdir. Rusiya işğalı öncəsi və sonrasında aparılan bu siyahıyaalmalar, xanlıqda yaşayan müxtəlif etnik qrupların dəqiq nisbətlərini göstərmək üçün mühüm bir mənbədir.

1813-cü il Gülüstan müqaviləsindən sonra Rusiya, Cənubi Qafqazda təsirini artırmağa çalışdı və bu çərçivədə İrəvan xanlığının əhalisi haqqında kameral siyahıyaalma işləri aparmağa başladı [4, s.7]. Bu siyahıya almanın nəticələrinə görə, İrəvan əyalətində 81.749 nəfər müsəlman (əsasən Azərbaycan türkləri və müsəlman kürdlər) və 25.151 nəfər erməni qeydə alınmışdır. Müsəlmanlar arasında Azərbaycan türkləri mütləq çoxluq təşkil edirdi, kürdlər isə maldarlıqla məşğul olan bir etnik qrup olaraq daha az sayda idi.

Rusiya tərəfindən aparılan bu siyahıyaalma, İrəvan xanlığının əhalisinin böyük bir hissəsinin Azərbaycan türklərindən ibarət olduğunu göstərən ən dəqiq mənbələrdən biridir. İvan Şopenin araşdırmalarında da təsdiq olunur ki, İrəvan xanlığında müsəlman əhali mütləq çoxluq təşkil edirdi. Şopen qeyd edir ki, İrəvan əyalətində 16.075 müsəlman ailəsi (81.749 nəfər) və 4.428 erməni ailəsi (25.151 nəfər) yaşayırdı. Burada "müsəlman" termini Azərbaycan türklərini və müsəlman kürdləri əhatə edirdi.

Bu faktlar, xanlığın etnik tərkibinin Azərbaycan türkləri tərəfindən üstünlük təşkil etdiyini açıq şəkildə göstərir.

Amerika Birləşmiş Ştatlarından olan tanınmış tarixçi və demoqrafiya mütəxəssisi Castin Makkarti də İrəvan xanlığının əhalisinin 1828-ci ilə qədər 80%-nin Azərbaycan türklərindən ibarət olduğunu bildirir. Bu təhlillər, İrəvan xanlığının tarixi boyunca Azərbaycan türklərinin demoqrafik olaraq üstünlük təşkil etdiyini və ermənilərin yalnız müəyyən dövrlərdə əhəmiyyətli sayda köç etməklə sayı artdığını sübut edir.

Erməni mənbələrinin İrəvan əhalisinin əksəriyyətinin ermənilərdən ibarət olduğu iddialarına rəğmən, Rusiya tərəfindən aparılan rəsmi siyahıyaalmalar və müasir tarixçilərin araşdırmaları, bu iddiaların həqiqətə uyğun olmadığını ortaya qoyur [3, s.37]. Məsələn, Rusiya ordusunun generalı Paskeviçin hesabatlarında İrəvan xanlığında yaşayanların 3/4 hissəsinin müsəlman olduğu bildirilir ki, bu da Azərbaycan türklərinin əksəriyyət təşkil etdiyini təsdiq edir.

İrəvan xanlığının ərazisində ermənilərin sayı XIX əsrin əvvəllərində xüsusilə artırılmışdır. Bu, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra İrandan və Türkiyədən İrəvana kütləvi erməni köçlərinin təşkil olunması ilə əlaqəlidir. Rusiya tərəfindən təşviq edilən bu köçlər, İrəvanın etnik tərkibinə ciddi təsir göstərmiş və ermənilərin sayının artmasına səbəb olmuşdur. 1828-ci ildən 1830-cu ilə qədər İrandan 40.000, Türkiyədən isə 84.000 erməni İrəvana köçürülmüş və bu əhali əsasən müsəlman kəndlərinin yerinə yerləşdirilmişdir. Bu məcburi köçürmə siyasəti, xanlıqda yaşayan Azərbaycan türklərinin demoqrafik üstünlüyünü ciddi şəkildə təhdid etmişdir.

Bütün bu faktlar, İrəvan xanlığının əhalisinin əsasən Azərbaycan türklərindən ibarət olduğunu göstərir və ermənilərin bu bölgədə əhəmiyyətli dərəcədə yerli olmadığını ortaya qoyur. Beləliklə, xanlığın etnik tərkibi və bu tərkibin XIX əsrin əvvəllərindəki vəziyyəti haqqında məlumatlar, Azərbaycan türklərinin tarixi köklərinin və üstünlüyünün təsdiqi kimi qəbul edilə bilər.

Ermənilərin İrəvana köçürülməsi: Ermənilərin İrəvan xanlığına köçürülməsi XIX əsrin əvvəllərində baş verən Rusiya-İran və Rusiya-Osmanlı müharibələri nəticəsində və bu müharibələrin sonrasında bağlanan Türkmənçay (1828) və Ədirnə (1829) sülh müqavilələrinin birbaşa nəticəsi olaraq geniş vüsət almışdır. Rusiya İmperiyası, Cənubi Qafqazda öz mövqeyini gücləndirmək üçün bölgənin etnik tərkibini dəyişdirmə siyasəti yürütmüş və bununla da İrəvan və Yelizavetpol quberniyalarında erməni əhalisinin sayını artırmaq üçün kütləvi köçürmə planları həyata keçirmişdir.

Türkmənçay müqaviləsi (1828) Rusiya ilə İran arasında bağlanan və İrəvan xanlığının da daxil olduğu geniş ərazilərin Rusiyaya verilməsini nəzərdə tutan bir sülh müqaviləsi idi [8, s.13]. Bu müqaviləyə əsasən, İran sərhədləri daxilində yaşayan 40.000 erməni Cənubi Qafqaza, xüsusilə İrəvan və Yelizavetpol quberniyalarına köçürülmüşdür. Eyni zamanda, 1829-cu ildə Rusiya ilə Osmanlı İmperiyası arasında bağlanan Ədirnə sülh müqaviləsi çərçivəsində Türkiyənin müxtəlif bölgələrindən, əsasən Şərqi Anadolu ərazisindən 84.000 erməni yenidən bu bölgələrə köçürülmüşdür.

Bu köçürmə siyasəti, bir tərəfdən Rusiya İmperiyasının Qafqazda daha güclü bir təməl yaratmaq istəyinin, digər tərəfdən isə ermənilərin Cənubi Qafqazda saylarını artırmaq və burada öz milli dövlətlərini qurmaq istəklərinin birləşdiyi bir proses idi. Erməni din xadimləri və ziyalıları, bu köçürmə prosesini Rusiyaya bağlılıqlarını nümayiş etdirmək və Cənubi Qafqazda erməni dövlətçiliyini gücləndirmək üçün bir fürsət kimi qiymətləndirdilər.

Köçürülən ermənilər əsasən İrəvan və Yelizavetpol quberniyalarının ən məhsuldar torpaqlarında, xüsusilə müsəlman əhalisinin, yəni əsasən Azərbaycan türklərinin yaşadığı kəndlərdə yerləşdirildi. Köçürmə prosesinin təşkilatçılarından biri olan A.S.Qriboyedov, ermənilərin yerləşdirildiyi ərazilərdə yerli müsəlman əhalisinin narahatlıq və narazılıq hissi keçirdiyini bildirir və onların tələtüm içində olduğunu yazırdı. O, qeyd edirdi ki, ermənilərin gəlməsi müsəlmanların həyatında ciddi dəyişikliklərə səbəb olmuş və bu vəziyyətin uzun müddət davam etməyəcəyi ilə bağlı vədlər vermək məcburiyyətində qalmışdır [8].

N.N.Şavrovun qeyd etdiyi kimi, ermənilərin Cənubi Qafqaza köçürülməsi böyük ölçüdə Rusiya İmperiyasının strateji məqsədlərinə xidmət etmişdir. O yazırdı ki, iki il ərzində (1828-1830), İrandan 40.000 və Türkiyədən 84.000 erməni Zaqafqaziyaya köçürülmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirmişlər.

Rusiya, bu köçürmə siyasəti ilə bölgənin etnik tərkibini dəyişdirmək və ermənilərin əksəriyyət təşkil etdiyi bir demoqrafik mühit yaratmaq məqsədi güdürdü. Nəticədə, XIX əsrin əvvəllərində İrəvan xanlığında erməni əhalisinin sayı ciddi şəkildə artdı. Bu köçürmə siyasətinin nəticəsi olaraq, ermənilər İrəvan və ətraf bölgələrdə mühüm bir demoqrafik güc əldə etdilər və bu da gələcəkdə bölgədəki siyasi və sosial dəyişikliklərə səbəb oldu.

Bu demoqrafik dəyişikliklər bölgədəki etnik balansı Azərbaycan türkləri zərərinə dəyişdirdi və ermənilərin məskunlaşması İrəvanın tarixi əhalisinin sosial, iqtisadi və mədəni həyatına ciddi təsir göstərdi. Rusiya İmperiyasının bu köç siyasəti, gələcəkdə baş verəcək hadisələrə – yerli əhalinin, xüsusən Azərbaycan türklərinin kütləvi deportasiyası və soyqırımına zəmin hazırlayan tarixi hadisələrə yol açdı.

XIX əsrin sonlarından etibarən Türkiyədə erməni üsyanlarının yatırılması nəticəsində on minlərlə erməni ölkəni tərk edərək Cənubi Qafqaza axışmışdı. Onların böyük bir qismi qaçqın kimi İrəvanda məskunlaşmışdı. Qaçqın ermənilər daimi məskunlaşdırmaq məqsədilə İrəvanda 1905-1906-cı illərdə 4 dəfə qırğınlar törədilmiş, azərbaycanlıların xeyli hissəsi ya məhv edilmiş, ya da evlərindən didərgin salınmışdı [5, s.36].

Nəticə. İrəvan xanlığının etnik tərkibi tarixi müddət ərzində böyük dəyişikliklərə məruz qalmışdır. Başlanğıcda Azərbaycan türkləri əhalinin əksəriyyətini təşkil etmiş, lakin XIX əsrin əvvəllərində rus işğalı və ermənilərin kütləvi köçü nəticəsində demoqrafik vəziyyət dəyişmişdir. Buna baxmayaraq, tarixi faktlar göstərir ki, İrəvan xanlığının uzun müddət əsas etnik qrupları Azərbaycan türkləri olmuşdur. Bu məlumatlar İrəvan xanlığının tarixini və demoqrafik strukturunu daha yaxşı başa düşmək üçün əhəmiyyətlidir, həmçinin bölgənin siyasi və etnik dinamikalarını qiymətləndirməyə kömək edir.

ƏDƏBİYYAT

1. Dubrovin N.Ḟ. (1871). Istoriı̑a voĭny i vladychestva russkikh na Kavkazȋe (Vol.1, No.1). Tip. Depatamenta udȋelov, 352 c.
2. Əliyeva F.“İrəvan xanlığı” / Azərbaycan qəzeti, 18 mart, 2009, s.6.
3. Məmmədova İ. “İrəvan xanlığının əhalisi”. Bakı, 2017, s.56.
4. Mirişli E. "Quzey Azərbaycanın işğalı: Gülüstan və Türkmənçay müqavilələrinin bağlanması" // Türküstan qəzeti, 16-22 noyabr, 2021, s.7.
5. Mustafa N.Y. “İrəvan şəhəri”. Bakı, 2020, s.292.
6. Qaliboğlu E. "İrəvan xanlığı" / Xalq Cəbhəsi qəzeti, 21-23 iyul, 2018, s.12.
7. Qaliboğlu E. “İrəvan xanlığında əhalinin etnik və say tərkibi” 20.05.2019.
8. Qaliboğlu E. "İrəvan xanlığında əhalinin etnik və say tərkibi" / Xalq Cəbhəsi qəzeti, 25 may 2019, s.13.
9. Qaliboğlu E. "İrəvan Türkmənçay müqaviləsindən sonra" / Xalq Cəbhəsi qəzeti, 21 sentyabr 2019, s.13.
10. Qarayev E. XVIII-XIX yüzilliyin əvvəllərində İrəvan bölgəsinin əhalisinin say və etnik tərkibi // Hərbi bilik, 2016, №1, s.105-111.

ЛЕЙЛА АЛИЕВА
Доктор философии по истории,
Сумгаитский государственный университет

ЭТНИЧЕСКИЙ СОСТАВ ИРАВАНСКОГО ХАНСТВА

Этнический состав Иреванского ханства претерпел значительные изменения на протяжении истории. В момент его основания азербайджанские тюрки составляли большинство населения. Такая ситуация сохранялась до начала XIX века, когда демографическая структура региона существенно изменилась из-за колониальной политики России на Южном Кавказе и массового переселения армян. После Туркманчайского и Адрианопольского договоров десятки тысяч армян были переселены из Ирана и Турции в губернии Иреван и Елизаветполь. Эти изменения

оказали глубокое влияние на социальную, экономическую и культурную жизнь региона. Тем не менее, исторические источники подтверждают, что азербайджанские тюрки долгое время оставались основной этнической группой в Иреванском ханстве, что помогает лучше понять этническую и политическую динамику региона.

Ключевые слова: этнический состав, Иреванское ханство, Туркманчайский договор, переселение армян, Россия.

LEYLA ALIYEVA
PhD in History, Sumgayit State University

ETHNIC COMPOSITION OF THE IRAVAN KHANATE

The ethnic composition of the Iravan Khanate underwent significant changes over time. At its inception, Azerbaijani Turks made up the majority of the population. This situation continued until the early 19th century when the demographic structure of the region changed significantly due to Russia's colonial policies in the South Caucasus and the mass migration of Armenians. After the Treaty of Turkmenchay and the Treaty of Adrianople, tens of thousands of Armenians were relocated from Iran and Turkey to the Iravan and Yelizavetpol governorates. These changes had a profound impact on the social, economic, and cultural life of the region. Despite this, historical sources confirm that Azerbaijani Turks remained the primary ethnic group in the Iravan Khanate for a long time, a fact that helps in understanding the ethnic and political dynamics of the region more clearly.

Keywords: ethnic composition, Iravan Khanate, treaty of Turkmenchay, Armenian migration, Russia.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il
Rəyçilər: t.ü.f.d. Sona Məhərrəmova, t.e.d. Qabil Əliyev.